# Əzəli yurdumuz əbədi sakinlərinə qucaq açacaq

***Xalqın və dövlətimizin əzmi onu göstərir ki, Azərbaycan bu istəyinə də nail olacaq***

**44 günlük Vətən müharibəsində Azərbaycan işğaldakı ərazilərini azad etməklə milli qürurunu bərpa etdi. Dünya şahid oldu ki, Azərbaycan xalqı öz haqqını qorumağa qadirdir.**

Qarabağda olduğu kimi, Qərbi Azərbaycanda da xalqımıza məxsus tarixi, dini abidələrimizi dağıdan ermənilərin yalanlarını ifşa edən sənədlər, xəritələr bu torpaqların əsl sahiblərinin azərbaycanlılar olduğunu təsdiqləyir. Həmin xəritələrdəki Azərbaycan mənşəli adlar da göstərir ki, xalqımız əsrlər boyu bu torpaqlarda yaşamış, dəfələrlə erməni xəyanətlərinin qurbanı olsalar da, el-obalarına sahib çıxmışlar.

Ermənilərin Azərbaycan türklərinə qarşı müxtəlif illərdə törətdiyi zorakı hərəkətlərin, xüsusilə azərbaycanlıların öz doğma yurdlarından zorla qovulmasına hüquqi-siyasi qiymət xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lideri Heydər Əliyev tərəfindən verilmişdir. Azərbaycanlıların Qərbi Azərbaycandan zorla köçürülməsi dövrünü araşdırıb, tarixi həqiqətləri üzə çıxarmaq üçün Prezident Heydər Əliyev "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci ildə Fərman imzalamışdır. Ermənilərin zorakı hərəkətlərinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verən, Azərbaycanın itirilmiş torpaqlarının sülh yolu ilə qaytarılması üçün öz səyini, bacarığını əsirgəməyən dünyaşöhrətli siyasətçi Heydər Əliyev demişdir: "Xalqımız daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir, niyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar".

2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının bir qrup ziyalısı ilə görüşündə Ermənistanın Azərbaycan torpaqlarını zəbt etməsi, soydaşlarımızın ata yurdlarından çıxarılması ilə bağlı tarixi faktları xatırladan Prezident İlham Əliyev daşnakların xalqımıza qarşı həyata keçirdiyi deportasiyaları növbəti cinayət, ədalətsizlik adlandırdırmışdır.

Ölkə rəhbəri İlham Əliyev indiki Ermənistanın tarixi Azərbaycan torpaqlarında yarandığını bəyan edib: "Əfsuslar olsun ki, 1918-ci ildə gənc Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı Ermənistana, demək olar, bağışladı. Bütün sənədlər var. Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də o idi ki, İrəvan paytaxt kimi Ermənistana verilsin. Baxmayaraq ki, o vaxt İrəvanda əhalinin əksəriyyəti azərbaycanlılar idi. Bu, böyük səhv idi. Bu, o vaxt gənc Azərbaycan dövlətini erməni təxribatlarından qorumadı. Bəlkə də, buna ümid edirdilər. Biz, demək olar ki, İrəvanı o vaxt itirdik. Amma görürük ki, ermənilərin iddiaları azalmır. Onlar vaxtaşırı ən yüksək səviyyədə müxtəlif cəfəng şüarlar, fikirlər səsləndirirlər ki, yenə də onların qonşu ölkələrin torpağına iddiaları var".

Bir neçə dəfə deportasiyaya məruz qalan Qərbi Azərbaycandan olan soydaşlarımızın zorla qovulduqları dədə-baba yurdlarına qayıdacaqları gün də uzaqda deyil. Bəli, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə Qərbi Azərbaycana qayıdış prosesi də reallığa çevriləcək, Qərbi azərbaycanlıların pozulan hüquqları bərpa ediləcəkdir. Xalqımızın və dövlətimizin əzmi onu göstərir ki, rəsmi Bakı gec-tez bu istəyinə də nail olacaq.

Qərbi Azərbaycan - indiki Ermənistanın əhatə etdiyi, tarixən azərbaycanlıların sıx şəkildə yaşadığı coğrafi məkandır və burada xalqımızın çox zəngin mədəni-tarixi irsi var. Bu da təsadüfi deyil, çünki əcdadlarımız min illər boyu bu ərazidə yaşayıblar. Dövlət başçımız cənab İlham Əliyev Qərbi Azərbaycanın, İrəvanın, Zəngəzurun və Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu vurğulayır və çıxışlarında daim bildirir ki, məcburi köçkünlərimizin öz torpaqlarına qayıtmaları ilə bağlı ümummilli arzularımız necə reallığa çevrildisə, çox çəkmədən İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımız da gerçək olacaq. Əlbəttə, bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var. Lakin bu işdə hər bir Azərbaycan vətəndaşının da üzərinə böyük məsuliyyət düşür. İlk növbədə, Qərbi Azərbaycan həqiqətlərini, o torpaqların azərbaycanlılara məxsus olmasını, ermənilərin soydaşlarımıza qarşı törətdiyi cinayətləri və digər faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalı, bu istiqamətdə aktiv iş aparılmalıdır.

"Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük... Bu gün yerləşdiyimiz yüksəkliklərdən, hətta Naxçıvan dağları da görsənir. Yəni bu, doğrudan da tarixi nailiyyətdir. Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq" söyləyən Prezident İlham Əliyev əminliklə bildirir ki, 30 il Ermənistanın işğalı altında qalan torpaqlarımız kimi, Qərbi Azərbaycandakı ərazilərimizi də siyasi, iqtisadi qüdrətimizlə azad edəcək, əsl sahiblərinə qaytaracağıq. Dövlət başçımızın qətiyyəti, xalqımızın və dövlətimizin əzmi onu göstərir ki, Azərbaycan gec-tez bu istəyinə də nail olacaq, insanlarımızın Qərbi Azərbaycana qayıdışı reallaşacaq.

27 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda ədalət qələbə çalıb, bundan sonra Qərbi Azərbaycana da qayıdış baş verəcək. Azərbaycan tarixin heç bir dövründə başqa ölkələrin, dövlətlərin torpaqlarına göz dikməyib və bundan sonra da bu dəyişməyəcək. Bizim milli kimliyimizin bir parçası olan tarixi Azərbaycan torpaqları heç vaxt unudulmamalıdır.

Müqəddəs Qarabağ torpaqlarımız igid övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına azad olunduğu kimi, Qərbi Azərbaycanda da tarixi yurdumuz əbədi sakinlərinə qucaq açacaq.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2024.- 24 dekabr (№ 284).- S.7.